# Hüseynbala Mirələmovun "Son səfər" və "Milli Kitabxananın "İmadəddin Nəsimi biblioqrafiyası" kitablarının təqdimatı



*Məndə sığar Vətən eşqi, mən bu eşqimə sığmazam,*
*İnciylə doludur dünyam, mən bu incimə sığmazam.*
**İmadəddin Nəsimi**.

Hüseynbala Mirələmovun "Son səfər" və "Milli Kitabxananın "İmadəddin Nəsimi biblioqrafiyası" kitablarının təqdimatı, "İmadəddin Nəsimi-650" kitab sərgisi barədə sözlərim.

İmadəddin Nəsimi böyük Azərbaycan şairi və hürufi alimidir. Nəsimi, Nəimi, Nizami, Rudəki, Füzuli, Mirzə Qalib, Nəbati dedikdə fikrimdə böyük, ucalığı, möhtəşəmliyi ölçülməz dərəcədə nəhəng bir məktəb canlanır. Bu məktəbin adı Azərbaycan Ədəbiyyat Məktəbidir. Eləcə də, Hüseynbala Mirələmov dedikdə fikrimdə həmin məktəbin yetirmələrindən biri canlanır. Hər gün fikrimin məktəbində yeni-yeni heykəllər ucaldılır, yeni-yeni tədbirlər olur. 24 dekabr 2019-cu il, yeni ilə 7 gün qalmış fikrimin məktəbində yeni bir heykəl ucaldıldı. Bu heykəl deyildi, heykəllər idi. 2 heykəl idi. İmadəddin Nəsimi və Hüseynbala Mirələmov heykəli. Həqiqətən də, onlar nəhəng alimlərdirlər. Onlara dünyanın hər daşında torpağında heykəl ucaltsan da, onlar haqqında çoxlu məlumat əldə etsən də, tədbirlər keçirsən də yenə də az olar. Bunlar yetməz. Bir alimi tamam-kamal öyrənmək üçün özünü onun yerinə qoymalısan, onun kimi fikirləşməli, onun fikrini, ürəyini oxumalısan. Əgər bunu etmisənsə, deməli, sənin səviyyən onun səviyyəsi ilə bərabərdir. Deməli, heykəli ucalmalı adamsan!

Buna əsl nümunə Hüseynbala Mirələmov və onun yaradıcılığıdır. Onun yaradıcılığı Nəsiminin, hətta Nəiminin də yaradıcılığı ilə səsləşir. Düzdür, nə o hürufidir, nə də biz. Nəsimini anlamaq üçün hürufi olmamalısan ki. Hürufilikdən başqa heç nə bilməyəni anlamaq üçün hürufi olmalısan. Hüseynbala Mirələmov Nəsiminin zamanında yaşamadı, Nəsimidən yazanlar da Nəsimini görməyib. Lakin, onu anlamağa çalışıblar. Hüseynbala Mirələmov "Son səfər" povestini yazdı və o vaxtdan da Nəsimini tamam anladı. Çünki, bu povestdə elə bil Nəsiminin içi oxunulub. Onun səmimiliyi yazılanlardan daha gerçəkçi yazılıb. Bununla demək olar ki, Hüseynbala müəllim Nəsimini görməyib, lakin, ruhunu görüb. Özü də tamamilə. Görüşüb də, danışıb da. Onunla birgə gərdişdən şikayət də edib. Bəlkə də, Nəsiminin yeni şeirlərini dinləyib. Ruh cism deyil, o, daha fərqlidir. Anar (1971-ci il Nəsimi filminin yazarı) və İsa Muğannadan (1973-cü il Nəsimi filminin yazarı) sonra heç kəs Nəsimini belə yazmayıb. Hüseynbala Mirələmov belə yazan 3-cü şəxsdir.

Və bir də Nəsimi haqqında elmi əsər yazanlar var. Bilirik ki, Həmid Araslı bu mövzuda peşəkar şəxslərdən olub. Həmid Araslıdan sonra Nəsimini ən çox təhlil edən AMEA-nın Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru Səadət Şıxıyeva ola bilər. Onun yazıları o qədər çoxdur ki, toplasan cild-cild kitablar edər.

Qayıdaq bu münasibətlə keçirilmiş tədbirə.

Mən həmin tədbirə obyektiv səbəblərdən bir az yubandım. Bu tədbirdən əvvəl Abşeron rayonu Təhsil Şöbəsinin təşəbbüsü ilə Xırdalan şəhər Heydər Əliyev Mərkəzində "Səttar Bəhlulzadə-110" adlı İllüstrasiya Yarışması tədbirinə dəvət olunmuşdum. İşə baxın ki, o tədbir saat 3-ə qalmış qurtardı, bu tədbir isə saat 3-də başlayırdı. Mən gələndə saat 4-ə işləmiş idi.

Gec gəlməyimə çox məyus olsam da, əhvalım dəyişmədi. Əksinə, o gün iştirak etdiyim tədbir mənim olduğum ən yaxşı tədbirlərdən biri idi.

Tədbir Milli Kitabxananın direktoru, professor hörmətli Kərim müəllim Tahirovun çıxışı ilə başlamışdı.

Sonra İmadəddin Nəsimi barədə çəkilmiş filmdən bir fraqment göstərildi ki, həmin vaxt mən artıq zalda idim. Tədbiri elə Kərim müəllim idarə edirdi. Tədbirdə Mədəniyyət Nazirimiz hörmətli Əbülfəs müəllim Qarayev Nəsimi ilindən, ölkəmizdə Nəsiminin xatırlanmasından və biblioqrafiyanın Nazirliklə birlikdə araya-ərsəyə gəlməsindən söz açdı.

Tədbirin iştirakçılarından millət vəkili Hadı Rəcəbli Hüseynbala Mirələmovla hələ orta məktəb illərində parta yoldaşlığından, dostluğundan və eyni işdə eyni məqsəd uğrunda çalışdıqlarından (hər ikisi millət vəkili kimi), Hüseynbala Mirələmovun öz obrazları ilə danışmasından, onlara aman verməməsi və yazığı gəlməsindən danışdı. Mənim vurğuladığım kimi, Hüseynbala müəllim Nəsimi ilə danışıb.

Yuxarıda haqqında qeyd etdiyim alim Səadət xanım Şıxıyeva da çıxış etdi. O, təmkinli idi, onun çıxışından sonra mən Nəsimini daha çox dərk etdim. O elə danışırdı ki, elə bil Hüseynbala Mirələmovla birlikdə Nəsimi dönəmində yaşamışdılar.

Professor Qəzənfər Paşayev Nəsimi irsinin yaşadılmasından, necə yaşadılmasından danışdı. Nəbi Xəzrinin, Qabilin, Nəsiminin özünün ölməz şeirləri barədə məlumat verdi.

Akademik, millət vəkili Nizami Cəfərov da Nəsimi mövzusunda çıxış etdi. Onun çıxışından çoxlu dəyərli məlumatlar əldə etdim. AMEA-nın Əlyazmalar İnstitunun direktoru, akademik Teymur Kərimli biblioqrafiyanın ön söz müəllifi olaraq ön sözündən və Nəsimi irsindən danışdı. Dərisi soyulmuş Nəsimi ilə Sokratı müqayisə etdi. Nəsimi də Sokrat da heç vaxt zülmə tabe olmayıblar, qorxusuz olublar, hətta öldürüləndə də. ri əsasında çəkilmiş "Tənha durna uçuşu", "Yeni həyat" və "Toy" filmlərinə dəfələrlə baxmışam. "Kredo" qəzetinin arxivinə nəzər salsaq, qəzetin birinci sayında Hüseynbala Mirələmovun yazısını görərik. Elə "Kredo"nun indiki saylarında da Hüseynbala Mirələmovun "Çaldırana gedən yol" silsilə yazıları yer alır.

16 sentyabr 2019-cu ildə mən Sami Yusufun ifa etdiyi "Sığmazam" mahnısına qulaq asmışam və ilhamlanıb eyni adlı şeiri yazmışam. Burada qeyd də etmişəm ki, Ulu Ustadın yanında zərrə deyiləm, lakin, çağlayan ilhamıma görə bu şeiri yazmışam.

Mən həmin şeiri oxudum. Şeirim bəyənildi və alqışlandı. Mənə söz verdiyinə görə hörmətli Kərim müəllim Tahirova və şərait yaratdığına görə Milli Kitabxananın əməkdaşı Jalə xanım Məmmədovaya dərin minnətdarlığımı bildirirəm.

Tədbirin sonuna yaxın Milli Kitabxananın əməkdaşı mənim də şəxsiyyətinə çox hörmət bəslədiyim Rübabə xanım Səfərova "Nəsimi-650" saytı haqqında maraqlı və geniş məlumat verdi. İşinə həmişə diqqətlə, məsuliyyətlə yanaşan, biz gənclərə mənəvi dəstək olan Rübabə xanıma dəyərli məlumatlarına görə təşəkkür edirəm. Tədbirin sonunda isə qonaqlar "Nəsimi-650" sərgisinə baxdılar və xatirə şəkilləri çəkdirdilər.

Mən hörmətli Hadı Rəcəbli və Hüseynbala Mirələmovla görüşdüm. Hadı müəllim mənə özünün Azərbaycanda ilk siyasi elmlər doktoru olduğunu söylədi. Bu mənim üçün çox maraqlı məlumat oldu. Hüseynbala Mirələmov isə mənim "Kredo" qəzetində dərc olunan yazılarımı oxuduğunu dedi. Mən çox fəxr hissi duydum. O, məni öz iş yerinə dəvət etdi. İmkanım olsa




Milli Kitabxananın əməkdaşlarının tədbirlərdə dəfələrlə çıxışlarına qulaq asmışam. Onların çıxışlarından böyük fəxr və qürur hissi duymuşam. Onlar bilik verməkdən, Ulu Öndərimiz və ondan əvvəl yaşamış Atamızın-Babamızın əmanətlərini qorumaqdan usanmır, əksinə, fəxr hissi, vüqar hissi duyur, əməklərinin nəticəsindən ləzzət alıb fəxr edirlər. Onlar çox nəzakətli və mehribandırlar. Kitabxana işçiləri ədəbiyyatımızı da yaşadırlar. Nizaminin və bir çox ədiblərimizin Çexiya və digər ölkələrdən böyük zəhmətlə kitablarının gətirilməsində onların böyük əməyi və rolu danılmazdır. Azərbaycanın təhsil və mədəniyyət sahəsinin fəxrləri, Sizə dərin minnətdarlığımı bildirirəm!

Kitabxana əməkdaşlarından olan Mədinə xanım Vəliyeva ilə qısa söhbətim baş tutdu. O mənə bildirdi ki, "İmadəddin Nəsimi" biblioqrafiya kitabı böyük zəhmət və alın təri hesabına başa gəlmişdir. Kitabxanada Nəsimiyə aid 4000-ə yaxın kitabların tapılmasından əlavə, dünya ölkələri kitabxanaları ilə əlaqə saxlanılıb əlavə kitablar tapılmışdır. Kitabxana əməkdaşlarının bu fədakar əməyini izləyənlər, onların necə zəhmətkeş olduqlarını da bilərlər.

Çıxışları dinlədikdən və kitabı gözdən-nəzərdən keçirdikdən sonra ilhamlandım və bir çıxış yazmaq istədim. Çıxışımı beynimdə yazdım. Planlaşdırdım və ondan sonra da şerimi deyəcəyim qərarını verdim.

Kərim müəllim Tahirov mənə söz verdi. Mən ikinci dəfə idi ki, belə ətraflı çıxış edirdim və buna görə də sevincimin həddi-hüdudu yox idi. Gec gəlməyimə görə heç məyus olmurdum. Hörmətli Hüseynbala Mirələmov və Hadı Rəcəbli mənə diqqətlə baxıb gülümsünürdülər. Onlar təəccüblənmişdilər. Özünün dediyinə görə, Hadı Rəcəbli də 10-11 yaşlarında ilhamlanıb, Nəsiminin qəzəlinə nəzirə yazıb, lakin, bu istedadını inkişaf etdirməyib.

Çıxışım belə idi:

-Mən şeiri deməzdən əvvəl istəyirəm ki, Nəsimi və Hüseynbala Mirələmov mövzusu barədə bir neçə söz deyim. Mən Nəsimi mövzusuyla 5-6 yaşlarımdan tanış idim, Nəsimi barədə yazılan çoxlu sayda məqalələri, Nəsiminin qəzəllərini oxumuşam və 6 yaşımda isə İsa Muğannanın "Nəsimi" filminə baxmışam və xalq artistimiz Rasim Balayevi də bu filmdə tanımışam. 7-8 yaşlarımda Hüseynbala Mirələmovun əsərlə- bir gün Hüseynbala müəllimin iş yerində qonağı olaram. Amma həyəcanımdan Hüseynbala müəllimə onun oğlu Fərid müəllim Mirələmovla atamın aylar əvvələ qədər bir yerdə işlədiklərini deməyi unutdum. İnanıram ki, Hüseynbala müəllim yazımdan bunu oxuyub biləcəkdir.

Hörmətli Qəzənfər müəllim Paşayev də mənimlə görüşdü, atamın adını soruşdu. Məni mətbuatdan tanıdığını və yazılarımı bəyəndiyini söylədi. Mən də ona təşəkkür etdim.

Axırda Kərim müəllim Tahirovla şəkil çəkdirib Milli Kitabxanadan xoş təəssüratla ayrıldım.

Məqalənin adı niyə belədir deyə düşünə bilərsiniz. Bilirsiniz, tarixən çox söz dəyişikliyə uğrayıb. Bəzi dilçilər Salur sözünün dilimizə Alur kimi gəlib çatdığını da deyirlər. Belə bir fikir irəli sürürəm ki, "İmadəddin" sözündə yüzlərlə digər sözlər kimi dəyişikliyə uğramışdır. Mənim fikrimcə İmadəddin deyil İmaməddin olmuşdur. Bu sözlər dini baxımdan da uyğundur. İmadəddin İmaməddin ola bilər. Bəzi yerlərdə İmadəddin sözündən çox İmaməddin sözü yayılmışdır. Buna aktyorumuz İmaməddin Həsənov da misal ola bilər. Onun adı "Cavid ömrü" filmində İmaməddin deyil, İmadəddin kimi verilib. "İmaməddin" sözü "Dinin imamı", "İmadəddin" sözü "dinin qüvvəti, dinin dirəyi" mənasını verir. Bu fikri Hüseynbala Mirələmovun kitabındakı "İmaməddin Nəsimi" qrammatik "səhv"indən sonra irəli sürdüm. Ona görə də məqalənin adını dəyişikliyə uğrayan və uğramayan sözlərin birləşməsi etdim. - İmadəddin Nəsimi, İmaməddin Nəsimi!

Mən Hüseynbala Mirələmovun tədbirindən çox zövq aldım. Elə bil "Nəsimi" filminin kinoteatrda təqdimatı idi. Tədbirdə Kərim müəllimin də dediyi kimi, 2 şəxsiyyətin işığına toplaşmışdıq. Bu şəxsiyyətlərin mənliyi və səviyyəsi eyni idi. Onlar bir baba-nəvə kimi bir-birləri ilə danışmışdılar, qaynayıb-qarışmışdılar və Nəsimi ona heç kəsə demədiyi səmimi ürək sözərini demişdi.

Biri-birini tamamlayan şəxsiyyət, İmadəddin (İmaməddin) Nəsimi və Hüseynbala Mirələmov.

***Sevindik NSSSİBOĞLU***
***25.12.2019***